Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 avqust 2024-cü il, şənbə
№ 153 (6739)
Qiymәti 60 qəpik


# Rəsmən müttəfiq olduq!

## İlham Əliyev: Münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq

## Şavkat Mirziyoyev: Bu tarix öz təcəssümünü Azərbaycan və Özbəkistan xalqlarının rifahında tapacaq



Bax səh. 2-3









## Yeni hədəflər milli maraqlara əsaslanmaqla qlobal çağırışlara cavab verir

Bax səh. 5

## Zəngəzur dəhlizində işlər yekunlaşır



Bax səh. 7

## Yeni sərmayə fondu...

Avqustun 22-də Daşkənddə Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin ofisinin açılışı olub. Yeni iqtisadi struktur Azərbaycan və Özbəkistan arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi və investisiya fəaliyyətinin fəallaşdırılmasını təşviq edəcək, iki dövlətin işgüzar dairələri arasında birbaşa əlaqələrin inkişafında vasitəçilik funksiyasını həyata keçirəcək. Həmçinin dövlət və özəl sektorun nümayəndələrini vahid sərmayə platformasında birləşdirərək onların qarşılıqlı sərmayə qoyuluşlarının istiqamətlərini müəyyənləşdirərək sərmayə proqramlarının icrasında koordinasiyaedici rol oynayacaq.

Qeyd edək ki, Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında" 2022-ci il 21 iyun tarixli Bəyannaməni və "Azərbaycan Respublikası Hökuməti ilə...

Bax səh. 7

## Şəhər günün mübarək, Laçın!

Özündə "gözəllik", "şux qamət" mənalarını ehtiva edən "laçın" sözü bizim üçün həm də ölkəmizin dilbər guşələrindən olan Laçın şəhərinin adını daşıması ilə əlamətdardır. Elə şəhərə bu ad da təbiətinin təkrarsız gözəlliyinə, dağlar qoynunda qərar tutmasına görə verilib. Xatırladaq ki, Laçın şəhərinin əsası 1923-cü ildə qoyulub və yazıçı Tağı Şahbazi Simurqun təşəbbüsü ilə ona "Laçın" adı verilib. 2024-cü ildə isə eyniadlı rayon təsis edilib. İşğaldan azad edildikdən sonra rayonun və şəhərin tarixində yeni bir dövr başlayıb. 26 avqust təqvimdə Laçın şəhəri günüdür.

**İşğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri**

Vətən müharibəsində işğaldan azad edilən ərazilərin hər qarışı bizim üçün son dərəcə əzizdir. Biz düz otuz il ərzində yurd yerlərimizə, doğma kəndlərimizə, şəhərlərimizə qayıtmağın həsrəti ilə yaşamışıq. 44 günlük müharibədə şanlı Ordumuzun şücaəti ilə əldə olunan böyük Qələbə sayəsində bu həsrətə...

Bax səh. 8

## "Onlayn Azərbaycan"

Genişzolaqlı internetə çıxış (GZÇ) son zamanlar bütün dünyada yaxşı yaşam tərzinin tərkib hissələrindən biri kimi qəbul edilir. Məlumdur ki, pandemiya və insanların həyat tərzinin dəyişməsi onlayn iş, onlayn təhsil sistemindən geniş istifadəyə şərait yaratdı. Keyfiyyətli genişzolaqlı internet bizə yalnız çıxılmaz vəziyyətlərdə kömək olmadı, eyni zamanda istənilən ölkədə yaşayan şəxslərlə görüntülü danışmaq, yeni biliklərin yaranması, rəqəmsal dövlət xidmətlərinin əldə edilməsi kimi əlavə imkanlar yaratdı.

Bütün bunlar isə sürətli və keyfiyyətli internetə çıxışın olmasını tələb edir. Evdə internetə çıxış artıq Azərbaycan əhalisinin çoxunun həyatında adi bir hadisəyə çevrilib. İnternetə çıxış müxtəlif texnologiyalar vasitəsi ilə mümkündür. Ölkəmizdə tarixən ilk qurulmuş texnologiya ADSL-dir. Lakin ADSL texnologiyaları tədricən keçmişdə qalır və getdikcə dünya şəbəkə operatorları daha yüksək sürətli GPON texnologiyasına üstünlük...

Bax səh. 8



## Harrisin vədi: Dünyanın bir nömrəli ordusunu yaradacağam

## Silahlanma yarışı...

Bax səh. 7

# Rəsmən müttəfiq olduq!

## İlham Əliyev: Münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq

## Şavkat Mirziyoyev: Bu tarix öz təcəssümünü Azərbaycan və Özbəkistan xalqlarının rifahında tapacaq

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-23-də Özbəkistan Respublikasında dövlət səfərində olub

## Daşkənddə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ehtiram






Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar.

Daşkəndin Mirabad rayonunda yaradılan Heydər Əliyev Meydanının və Ulu Öndərin burada ucaldılmış barelyefinin 2022-ci il iyunun 21-də açılışı olub. Ərazisi tamamilə yenidən qurulan meydanda yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Həmin il Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Ulu Öndərin barelyefinin açılışında iştirak ediblər.

## Müstəqillik abidəsini ziyarət

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılan abidə özbək xalqının üç min illik tarixini əks etdirir. Yeni abidə paytaxt yaxınlığında yerləşən, ölkənin müstəqilliyinin ildönümünə həsr olunan “Yangi Uzbekiston” (“Yeni Özbəkistan”) kompleksinin mərkəzində yerləşir. Altmış metr hündürlüyündə abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir.

Abidənin üzərində Özbəkistan tarixində qədim vaxtlardan müasir dövrədək baş verən mühüm hadisələr təsvir edilib. Kompleksdə əsasən sərkərdə və döyüşçülərin, alim və mütəfəkkirlərin, maarifçilərin obrazları əks olunub. Müstəqillik abidəsini sülhü, azadlığı, xeyirxahlığı



və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır.



## Rəsmi qarşılanma

Avqustun 23-də Daşkənddəki “Kuksaroy” dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşılayıblar.



## Məhdud tərkibdə görüş

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə məhdud tərkibdə görüşü olub.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıması məmnunluqla vurğulandı, enerji, nəqliyyat, turizm sahələrində əməkdaşlıq müzakirə olundu, beynəlxalq və regional məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

## Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib



## Sənədlər imzalanıb

Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.

Hər iki ölkənin prezidentləri “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə”ni imzalayıblar.

Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev “Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı”nı qəbul ediblər.





Mərasimdə “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024-2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı”, “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024-2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi”, “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Məktəbəqədər və Ümumi Təhsil Nazirliyi arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Protokol”, “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Ali təhsil, Elm və İnnovasiyalar Nazirliyi arasında peşə təhsili, orta ixtisas, ali təhsil və elm sahəsində əməkdaşlıq haqqında Protokol”, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2024-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı”, “Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyinin yanında Hüquqşünasların İxtisasının Artırılması Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol”, “Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi yanında H.Sulaymanova adına Respublika Məhkəmə Ekspertizası Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol”, “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Milli Qvardiyası arasında əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Özbəkistan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş”, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Özbəkistan Respublikasının İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi arasında ticarət-iqtisadi və investisiya əməkdaşlığının daha da genişləndirilməsi üzrə 2024-2025-ci illər üçün Praktiki Fəaliyyət Planı”, “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı”, həmçinin Bakı (Azərbaycan) ilə Daşkənd (Özbəkistan), Beyləqan (Azərbaycan) ilə Şəhrisəbz (Özbəkistan), Quba (Azərbaycan) ilə Cizak (Özbəkistan) şəhərləri arasında regionlararası əməkdaşlıq haqqında sənədlər və “Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə “Uzbekneftegaz” SC arasında Əsas Şərtlər Sazişi” imzalanıb.

davamı 3-cü səhifədə

əvvəli 2-ci səhifədə

# Rəsmən müttəfiq olduq!



Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva avqustun 23-də Daşkənddə Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşüb.



Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva Daşkənddə "Mexrli" məktəbi ilə tanış olublar.



Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və qızı Saida Mirziyoyeva ilə birgə Özbəkistanın Xalq rəssamı Akmal Nurun əsərlərindən ibarət sərgi ilə tanış olub və Özbəkistan milli geyimlərindən ibarət kolleksiyaya baxıblar.



## Çoxplanlı tərəfdaşlığın hərtərəfli inkişafı...

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfərini iki ölkə arasında çoxəsrlik dostluq münasibətlərinin inkişafında tarixi hadisə adlandırıb və dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni mərhələnin başlandığını bildirib.



Özbəkistanın dövlət başçısı deyib: "Bu gün hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik münasibətlərinə dair müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsində yeni səhifənin açılması ilə əlamətdar olacaq. Biz bununla çoxplanlı tərəfdaşlığımızın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik".

Özbəkistanın müttəfiqlik münasibətləri saxladığı ölkələrin sayı çox azdır, amma indiyədək heç bir ölkə ilə bu cür qısa müddətdə belə müqavilə imzalanmayıb.

Özbəkistanın dövlət başçısı vurğulayıb: "Biz bu gün tarix yazdıq. Bu tarix öz təcəssümünü Azərbaycan və Özbəkistan xalqlarının rifahında tapacaq".

## Mühüm xarici siyasət addımı

Azərbaycan Prezidenti İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə mətbuata bəyanatında Özbəkistanın sürətli inkişafını qeyd edib.

Dövlətimizin başçısı deyib: "Müxtəlif dövrlərdə, xüsusən son illər Özbəkistana dəfələrlə səfər etmişəm və Şavkat Miromonoviçin rəhbərliyi ilə özbək xalqının həyata keçirdiyi möhtəşəm dəyişiklikləri əyani şəkildə görmüşəm. Şəhərlər gözəlləşir, sənaye fəal inkişaf edir. Daşkəndə ötən səfərimdə biz birlikdə böyük sənaye kompleksində olduq. Bütün bunlar müdrik siyasətin nəticəsidir. Xarici investisiyaların cəlbi, əlverişli biznes mühitinin yaradılması, sosial-iqtisadi inkişafa dair aparılan gündəlik iş, çoxlu sayda sosial layihələr bugünkü Özbəkistanın simasıdır".





Özbəkistanın təkcə regionda deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik olan ölkəyə çevrildiyini söyləyən dövlətimizin başçısı qeyd edib: "Özbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik ölkəyə çevrilib. Biz buna səmimi-qəlbdən sevinirik. Şavkat Miromonoviçin müdrik siyasətinin son təzahürü özbək idmançılarının Yay Olimpiadasında tarixi uğuru oldu. Onlar çoxlu medal qazandılar, onlardan 8-i qızıldır. Həmçinin müsəlman ölkələri arasında birinci və dünyada 13-cü yeri tutdular. Bu, tarixi nailiyyətdir".

Azərbaycan və Özbəkistanın rəsmən müttəfiq olduqlarını bəyan edən Prezident İlham Əliyev bunu tarixi məqam adlandırıb: "Bu gün biz rəsmən müttəfiqlər olduq. Əslində, razı olardım ki, bu, tarixi məqamdır. Müttəfiqlik münasibətlərinə dair müqavilə iki ölkənin imzalaya biləcəyi ali səviyyədə beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldu. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək".

Dövlətimizin başçısı qeyd edib ki, regionlarımızda müsbət proseslər Daşkənd ilə Bakı arasında səmərəli əməkdaşlıqdan asılıdır: "Bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır".

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında bildirib ki, özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə danışıqlarda işğaldan azad olunmuş Xankəndi şəhərində yüngül sənaye müəssisəsinin yaradılması layihəsini müzakirə edib.

Dövlətimizin başçısı qeyd edib: "Yalnız mühüm olan bir layihəni ayrıca qeyd etmək istərdim. Bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılması ilə bağlıdır. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir. Biz həmişə - istər işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra özbək xalqının qardaş dəstəyini hiss etmişik. Mən bu gün bu barədə danışmışam, Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə təkcə mənəvi dəstək göstərməklə yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib".

Azərbaycan və Özbəkistan birgə İnvestisiya Fondunun fəaliyyətinə toxunan dövlətimizin başçısı fondun kapitalını artırmalı olduğunu bildirib: "İkitərəfli gündəliyi və üçüncü ölkələrə investisiyalarla çıxışı artıracağıq. Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik".

Avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala konserti olub.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida Mirziyoyeva konsertdə iştirak ediblər.

## Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib



# Prezident İlham Əliyevin Özbəkistana səfəri bu ölkənin mətbuatında geniş işıqlandırılıb

Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 22-23-də Özbəkistana dövlət səfəri bu ölkənin mətbuatı tərəfindən geniş şəkildə işıqlandırılmaqdadır. Özbəkistanda fəaliyyət göstərən ingilisdilli və rusdilli media orqanları da Azərbaycan Prezidentinin səfərini diqqət mərkəzində saxlayır.

AZƏRTAC xəbər verir ki, ingilisdilli "Tashkent times" saytında dərc olunan materialda Özbəkistan və Azərbaycan liderləri arasında yaxın dostluq münasibətlərinin olduğu, bunun dövlətlər arasında əməkdaşlıq əlaqələrinin inkişafına böyük imkanlar yaratdığı vurğulanır. Diqqətə çatdırılır ki, hər iki ölkə beynəlxalq iqtisadi layihələri birgə həyata keçirməyə başlayıblar.

"Uznews" saytı yazır ki, iki ölkə arasında enerji, nəqliyyat və tranzit sahələrində əməkdaşlıq əlaqələri mövcuddur. Bu münasibətlərin inkişafı dövlətlər arasındakı əlaqələri yaxınlaşdırmaqla yanaşı, iqtisadi baxımdan da tərəflərə faydalı olacaq. Çindən Avropaya uzanan beynəlxalq əhəmiyyətli tranzit yolların hər iki dövlətin ərazisindən keçməsi birgə fəaliyyəti zərurətə çevirib. Prezidentlər regionun coğrafi mövqeyini düzgün qiymətləndirərək tranzit sahəsində əməkdaşlığı davam etdirirlər.

"Uz Daily" agentliyinin materialında qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə iki dövlət arasında müttəfiqlik münasibətləri haqqında bir sıra sənədlər imzalanıb. İmzalanan sənədlər iki ölkə arasında insan hüquqlarının qorunması, iqtisadi ticarət, mədəniyyət, turizm və digər sahələri əhatə edir.



















"Qazeta.uz" internet qəzetində dərc olunan yazıda vurğulanıb ki, son illər ərzində Azərbaycan və Özbəkistan prezidentləri qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, beynəlxalq platformalarda birgə fəaliyyəti genişləndirmək istəyirlər. Hər iki ölkənin prezidentinin iqtisadi inkişaf istiqamətində siyasət yürütmələri dövlətlər üçün səmərəlidir. Qarşılıqlı faydalı əməkdaşlıq iqtisadi inkişafa və siyasi gücün artımına xidmət edir.

"Kursiv" informasiya saytı "Özbəkistan ilə Azərbaycan müttəfiq oldular" sərlövhəli materialda qeyd edib ki, perspektiv inkişafı nəzərə alan hər iki ölkənin liderləri yalnız iqtisadi deyil, siyasi sahədə də birgə addımların əsasını yaratdılar. Bu iki ölkə Türk Dövlətləri Təşkilatı, MDB, BMT, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarda səmərəli əməkdaşlıq edir.

Özbəkistanın "Uza.uz" dövlət informasiya agentliyinin dərc etdiyi məqalədə prezidentlərin biznes strukturlarının nümayəndələri ilə görüşünə diqqət çəkilib. Qeyd olunub ki, görüşdə çıxış edən prezident Şavkat Mirziyoyev iş adamlarının, şirkət və müəssisələrin qarşılıqlı əməkdaşlığının çox vacib olduğunu vurğulayıb. Deyib ki, bu əməkdaşlığı genişləndirmək üçün dövlət lazım olan bütün imkanları yaradacaq. Azərbaycan Prezidenti isə qeyd edib ki, hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin artırılması imkan verir və bu istiqamətdə biznes strukturları daha fəal olmalıdırlar.

Rusdilli "Podrobno.uz" agentliyinin məlumatında göstərilib ki, Prezident Şavkat Mirziyoyev və Azərbaycan Prezidenti İlham Əliyev iri tikinti layihələrinin əsasını qoyublar. İki ölkə arasında dəyəri 2 milyard dollar olan müqavilələr imzalanıb. İmzalanan müqavilələrə əsasən, Daşkənddə mehmanxana və yaşayış kompleksləri, Azərbaycanda isə tikiş və digər istehsal sahələri inşa olunacaq. Bu layihələr hər iki ölkədə yeni iş yerlərinin yaradılmasına və əhalinin sosial-iqtisadi inkişafına böyük təkan verəcək.

Bunlardan başqa Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri "Qalampir", "Upl", "Uzreport", "Kun.uz","Daryo" "Zamon", "Anhor", "Nova 24", "Yuz.uz" və başqa internet resursları tərəfindən də geniş formada işıqlandırılıb.

Özbəkistan mətbuatında Azərbaycan Prezidentinin səfəri barədə dərc olunan materialların təhlili onu deməyə əsas verir ki, rəsmi Daşkənd və özbək xalqı dövlətimizin başçısının səfərini yüksək qiymətləndirir, dövlətlər arasındakı münasibətlərin inkişafına və hər iki ölkənin prezidentinin dostluq münasibətlərinə böyük dəyər verir.

# Xalqımızın Yeni Azərbaycan Partiyasına rəğbəti böyük, inamı sonsuzdur



46 saylı Sumqayıt beşinci seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Elnarə Akimova yap.org.az saytına müsahibə verib.

**- Elnarə xanım, ölkəmiz 1 sentyabr - növbədənkənar parlament seçkiləri ərəfəsindədir. Azərbaycan bu seçkilərə hansı reallıqlar fonunda gedir?**

- Ən böyük reallıq 8 noyabr - Zəfərlə başlanan və 20 sentyabr - dövlət suverenliyinin bərpası ilə tamamlanan missiyanın hamıya ərməğan etdiyi yeni Azərbaycandır. Biz dörd ildir ki, yeni Azərbaycanın vətəndaşı olaraq qürurluyuq. Ölkə başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2024-cü il fevralın 14-də inaqurasiya mərasimində yeni tarixi mərhələnin başlandığını bəyan etdi. Aydın məsələdir, 30 illik bir dönəmin özü ilə gətirdiyi proseslər tarixə qovuşmaqdadır. Biz o günlərə tarix kimi yanaşacağıq. Təbii ki, unutmamaq, yaddaşda qorumaq şərti ilə. Amma artıq diskurs dəyişib. Qələbə qazanmış ölkənin öz reallıq və çağırışları var. Bu reallıqlar bütün sahə və istiqamətlərdə yenilənmə tələb edir.

Əlbəttə ki, bu yeniliklər Ümummilli Lider Heydər Əliyevin prinsip və ideyalarını qorumaq, yaşatmaqla həyata keçməlidir. Çünki Heydər Əliyevin sözü, işi, ideya və əməlləri gündəlik həyatımızın tərcümanıdır -gücümüzü təyin edir, yol göstərir, işıq tutur. Biz bu adla dünənimizi dəyərləndirir, gələcəyimizə inamlı yanaşırıq. Azərbaycan Respublikasının Prezidenti də elə bu adın, bu imzanın ona aşıladığı səriştə və güclə qələbələr qazanır. Ölkə başçısının qeyd etdiyi kimi: “Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. Tarixi bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin gücləndirilməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir”.

Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideoloji konstruksiyası özündə çox mühüm taleyüklü amilləri ehtiva edirdi. Prezident İlham Əliyev Ümummilli Liderin inkişaf strategiyasına sadiq qalaraq milli maraqlara söykənən yeni, müasir siyasi ideologiyanı qorumağı bacardı. 44 günlük Qələbə bu ideologiyanın ərsəyə gətirdiyi əməli mündəricənin nəticəsi idi. Prezident İlham Əliyev yalnız 30 il işğalda qalan torpaqlarımızı sahibinə qaytarmadı, o, 2023-cü il 15 oktyabr tarixində Xankəndi şəhərində Azərbaycan Respublikasının Bayrağını yüksəltməklə Qarabağ adlı 270 illik bir yaramızı sağaltdı.

Bütün dünyaya bəllidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sülh yolu ilə, işğalçı Ermənistan ordusunu Azərbaycan torpaqlarından dinc yolla, beynəlxalq ictimaiyyətin və böyük dövlətlərin təzyiqi ilə çıxarmaq üçün çox addımlar atıb. Ölkə başçısı 2023-cü il 15 oktyabr tarixində Xankəndi şəhərində çıxışında bunu xüsusi vurğulayaraq qeyd etdi ki, “Azərbaycan xalqı yaxşı bilir və əminəm ki, dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan - Azərbaycan - Dağlıq Qarabağ münaqişəsini sülh yoluyla həll etmək istəyirdik... Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər...”.

Bütün bu cəhdlər, əlbəttə ki, Azərbaycan Prezidentini dünyada prinsipial, sülhsevər lider və ədalət tərəfdarı kimi tanıtdı. O, müharibə və humanizm fəlsəfəsini bir araya cəm edib sonadək ədalətli qala bilməyin nümunəsini sərgilədi.

Qalib ölkənin vətəndaşı olmaq necə böyük qürur yaşadırsa, ədalətli savaş aparan bir ölkənin vətəndaşı olmaq da böyük məmnunluq və iftixar doğurur. Möhtərəm Prezidentimizin Xankəndidə dalğalandırdığı bayraq, özünün dediyi kimi, orada əbədi qərar tutacaq. Azərbaycanın qalibiyyət simvolu kimi hər zaman dalğalanıb ölkə başçısının qüdrətini, qəhrəman əsgərinin hünər dastanını gələcək nəsillərə daşıyacaq.

İlk dəfədir ki, ölkəmizdə parlament seçkiləri suverenliyimizin tam bərpa edildiyi şəraitdə keçirilir. Bu, bütöv Azərbaycanın ilk parlament seçkisidir. Uzun illərdən sonra ilk dəfədir ki, millət vəkilliyinə namizədliyi qeydə alınmış şəxslər Qarabağ kimi taleyüklü məsələnin həllindən deyil, Zəfərdən, əldə olunan uğurlardan, Qarabağ və Şərqi Zəngəzurdakı dirçəlişdən, həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərindən, Böyük Qayıdış Proqramından danışırlar.

**- Bəs qarşıda dayanan əsas hədəflər barədə nə deyə bilərsiniz?**

- Bilirsiniz, ideologiya sağlam olanda və ona sadiqlik prinsipi qorunanda başlıca məqsədlər dəyişmir. Əsas hədəf, əlbəttə ki, siyasi sabitlik və milli birliyin qorunmasıdır. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşması, ordunun gücünün artırılması, vətənpərvər gəncliyin yetişdirilməsi, Böyük Qayıdış Proqramının ardıcıl olaraq həyata keçirilməsi və s. əsas hədəflərdir.

**- Elnarə xanım, seçicilərin 1 sentyabr - növbədənkənar parlament seçkiləri ilə bağlı əhval-ruhiyyəsi necədir?**

- Qeyd edim ki, qazanılan qələbələr xalqda böyük coşqu və inam yaradıb. Xalqımızın Yeni Azərbaycan Partiyasına rəğbəti böyük, inamı sonsuzdur. Partiyamız bu zamana qədər ona bəslənən etimadı qorumağı bacardı. Ona görə insanlar seçkilərə gedərək Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olacaqlarını bildirirlər. Bu, əlbəttə ki, ən doğru seçimdir. Çünki sabahlı bir gələcəyin qurulması yalnız ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasəti sayəsində mümkündür. Bu mənada, seçiciləri fəal olmağa, onları dövlətimizin adının daha yüksəklərə qaldırılması, davamlı zəfərlərə imza atılması üçün layiq bildikləri namizədlərə səs verməyə çağırıram.

# “Şərəfli inkişaf yolu gələcək uğurlarımızın təminatçısıdır”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) 43 saylı Sumqayıt ikinci seçki dairəsindən deputatlığa namizədi Tahir Mirkişili seçicilərlə növbəti görüş keçirib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Sumqayıt şəhər təşkilatının sədr müavini Cavid Məmiyev partiyanın parlament seçkilərinə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatıldığını diqqətə çatdıraraq Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən geniş bəhs edib.





Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP-ın namizədi olaraq seçkilərdə iştirak etdiyi üçün fəxarət hissi keçirdiyini bildirən deputatlığa namizəd Tahir Mirkişili bildirib ki, partiya yarandığı vaxtdan bugünədək azərbaycançılıq ideologiyası və müstəqillik prinsipi əsasında məqsədyönlü fəaliyyət göstərməklə böyük uğurlar əldə edib. Deputatlığa namizəd YAP-ın qarşıya qoyduğu yeni hədəflərə də nail olacağına əminliyini ifadə edib.

Namizədin vəkilləri Şakir Abışov və Əvəz Mahmudov çıxış edərək seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasına etimad göstərməyə çağırıblar. “Şərəfli inkişaf yolu gələcək uğurlarımızın təminatçısıdır”, - deyə vurğulanıb.

Deputatlığa namizəd Tahir Mirkişili şəhid Nurid Abdullayevin ailəsini ziyarət edib.

# “Xalqın seçimi yenə də Yeni Azərbaycan Partiyası olacaq”

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 82 saylı İmişli-Saatlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səyyad Salahlının İmişli rayonunda seçicilərlə növbəti görüşü keçirilib.

YAP İmişli rayon təşkilatının sədr müavini Elnur Tağıyev Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrün Azərbaycanın şanlı tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olduğunu vurğulayıb: “Bu günə qədər əldə edilən nailiyyətlər və qazanılan uğurlar deməyə əsas verir ki, bu seçkilərdə də xalqın seçimi yenə də Yeni Azərbaycan Partiyası olacaq”.






Deputatlığa namizəd Səyyad Salahlı artıq 30 ildən çoxdur ki, Azərbaycanın aparıcı siyasi qüvvəsinə çevrilmiş Yeni Azərbaycan Partiyasının qazandığı uğurlardan bəhs edib. O bildirib ki, Ümummilli Liderin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız tərəqqi yolunda inamla irəliləyir: “Azərbaycan uğurla inkişaf edərək regionun lider dövlətinə çevrilib. Qarşıda duran hədəflərin reallaşdırılması ölkəmizin milli gücünü daha da artıracaq”.

Tədbirdə Lalə Heydərova, Şakir Quliyev, Lətifə İmanova və digərləri çıxış edərək seçiciləri uğurlarımızın davamı naminə parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

# “Birlikdə yeni qələbələrə imza atacağıq!”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 106 saylı Tovuz seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nizami Səfərovun Tovuz rayonu, Aşağı Quşçu və Dondar Quşçu kəndlərində seçicilərlə görüşləri keçirilib.

YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının şərəfli inkişaf yolu keçdiyini və Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni nailiyyətlərə imza atdığını qeyd edib. O bildirib ki, parlament seçkiləri ölkəmizin gələcək inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.



Deputatlığa namizəd Nizami Səfərov YAP-ın seçki platforması barədə ətraflı məlumat verib. O, daim müstəqil Azərbaycanın qüdrətinin artırılması istiqamətində uğurlu fəaliyyət göstərən YAP-ın bütün seçkilərdə böyük fəallıq nümayiş etdirdiyini və qələbələr qazandığını söyləyib. “İndi qarşımızda növbəti mühüm hədəflərin gerçəkləşdirilməsi məqsədi durur. Biz birlikdə bütün hədəflərə nail olacaq, yeni qələbələrə imza atacağıq!”, - deyə vurğulanıb.

Sonra təşviqat qrupunun üzvü İsmayıl Hüseynov çıxış edərək seçiciləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

# Çoxşaxəli islahatlar Azərbaycanın yüksəlişinə xidmət edir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 19 saylı Nərimanov birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Hikmət Məmmədovun seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Nərimanov rayon təşkilatının sədr müavini Anar Abbasov parlament seçkilərinin əhəmiyyətindən danışıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın yüksəlişində müstəsna rol oynayıb, bundan sonra da qarşıda duran milli hədəflərin reallaşmasına öz töhfələrini verəcəkdir.

Deputatlığa namizəd Hikmət Məmmədov YAP-ın seçki platforması barədə məlumat verib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub: "Bu gün uğurla davam etdirilən genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşməsinə, iqtisadiyyatın inkişafına, əhalinin sosial rifahının yaxşılaşmasına, xalqımızın milli mədəni irsinin və mənəvi dəyərlərinin qorunmasına və ümumilikdə Azərbaycanın yüksəlişinə xidmət edir".

Görüş iştirakçıları çıxış edərək ümumxalq etimadını doğrultmuş Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini bildiriblər.



# "Yeni dönəmdə bütün hədəflərimiz reallığa çevriləcək"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 48 saylı Abşeron birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nigar Məmmədovanın YAP Abşeron rayon təşkilatının qərargahında Vətən müharibəsi iştirakçıları ilə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev bildirib ki, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda canını fəda etmiş şəhidlərinin ailələrinə, müharibə iştirakçıları və qazilərə xüsusi diqqət və qayğı dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir.

Deputatlığa namizəd Nigar Məmmədova YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını və üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin edib: "Möhtəşəm Zəfərdən sonra Azərbaycan üçün yeni dövr başlayıb. Yeni dönəmdə bütün hədəflərimiz reallığa çevriləcək".

O, şəhid ailələri, müharibə veteranları və digər bu kateqoriyadan olan şəxslərin rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl addımlar atıldığını diqqətə çatdırıb: "Cəmiyyətin bütün təbəqələri, o cümlədən şəhid ailələri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər kimi sosial cəhətdən həssas qruplar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub".

Vətən müharibəsi iştirakçısı Süleyman Cəfərov və digərləri çıxış edərək şəhid ailələri və qazilərə dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Nigar Məmmədova seçicilərlə fərdi görüşlər də keçirib.



# "YAP xalqın iradəsini ifadə edir"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 35 saylı Xətai üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Pərvanə Vəliyevanın YAP Xətai rayon təşkilatının qərargahında seçicilərlə növbəti görüşü keçirilib.

YAP Xətai rayon təşkilatının sədr müavini Vüqar Hüseynov qeyd edib ki, Azərbaycan uğurlu siyasəti ilə hər bir hədəfə zamanında nail olur: "Tarixi Zəfərimizin - ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpasının yaratdığı reallıqlar həm Azərbaycan, həm də bütövlükdə region üçün mühüm əhəmiyyət daşıyır. Yeni Azərbaycan Partiyasının seçki platformasında qazandığımız uğurlarla yanaşı, qarşıda duran əsas hədəflər də əksini tapıb".

Deputatlığa namizəd Pərvanə Vəliyeva qeyd edib ki, Yeni Azərbaycan Partiyası sınaqlardan şərəflə çıxıb, daim Azərbaycanın inkişafına xidmət edən məqsədyönlü addımlar atıb: "Son 30 ildə əldə olunan uğurlar göz qabağındadır. Bütün sahələrin inkişafı təmin edilib. Azərbaycan dünyada söz və nüfuz sahibinə çevrilib. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması, tarixi Zəfərimizin beynəlxalq müstəvidə tam və qəti şəkildə təsbit olunması, dövlətimizin hərbi qüdrətinin daha da artırılması, Böyük Qayıdış Proqramının ardıcıl olaraq və zamanında həyata keçirilməsi, regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa nail olunması qarşıda duran başlıca hədəflərdir".

Tədbirdə təşviqat qrupunun üzvləri Mirfaiq Mirheydərli, Elnarə Zeynalova, Meyvəddin Ramaldanov və namizədin vəkili Rafael Soltanov çıxış edərək seçiciləri fəal olmağa və YAP-ın namizədinə səs verməyə çağırıblar. "YAP daim milli maraqlarımızı qoruyur və xalqın iradəsini ifadə edir", - deyə vurğulanıb.



# Yeni hədəflər milli maraqlara əsaslanmaqla qlobal çağırışlara cavab verir

4 saylı Naxçıvan şəhər seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Eldar İbrahimov yap.org.az saytına müsahibə verib.



**- Eldar müəllim, sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Seçki prosesinin gedişatı və hazırkı ictimai-siyasi vəziyyət barədə fikirlərinizi bilmək istərdik...**

- Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizdə qanunvericilik hakimiyyətini həyata keçirir. Ona görə də hər bir Azərbaycan vətəndaşı haqlı olaraq parlamentə üzv olmaqla dövlətinə və xalqına ləyaqətlə xidmət etməyi özü üçün böyük şərəf hesab edir. Namizədliyi qeydə alınan şəxslər sırasında respublika ictimaiyyətinin, demək olar ki, bütün təbəqələrini təmsil edən insanlar var. Əlbəttə, namizəd olmaq istəyənlərin sayı daha çox idi. Lakin bir çoxları lazım olan sənədləri vaxtında və Seçki Məcəlləsinin tələblərinə uyğun təqdim edə bilmədilər. Artıq qeydə alınan namizədlərin təbliğat-təşviqat kampaniyası başlayıb. Bu kampaniyanın uğurla həyata keçirilməsi üçün heç bir ayrı-seçkiliyə yol vermədən hər bir namizədə bərabər şərait yaradılmışdır. Namizədlər təbliğat üçün müəyyən edilmiş yerlərdə və açıq havada seçicilərlə heç bir maneə olmadan görüşüb özlərinin seçki platformalarını izah etmək, seçicilərin suallarını cavablandırmaq imkanına malikdirlər.

Bir sözlə, ölkəmizdə Milli Məclisə sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkiləri demokratik, azad və şəffaf şəraitdə keçirmək üçün hər bir şərait mövcuddur. Ona görə də həm deputatlığa namizədlər, həm də seçicilər seçkiqabağı yaradılan bu əlverişli mühitdən öz məmnunluğunu ifadə edirlər.

- "Yeni dövrə Yeni Azərbaycanla! şüarı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının seçki platformasında Azərbaycanın əldə etdiyi nailiyyətlər və qarşıda duran əsas hədəflər öz əksini tapıb. Bu barədə nə deyə bilərsiniz?

- Qazandığımız bütün uğurların zirvəsində dayanan ən zəruri nailiyyət, şübhəsiz ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsidir. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində Ermənistanın 30 illik işğalına son qoyuldu və xalqımızın ən zəruri arzusu yerinə yetirildi. Hazırda azad edilən ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri sürətlə davam edir. Biz inanırıq ki, partiyamızın Sədri, möhtərəm Prezidentimiz İlham
Əliyevin qayğısı və diqqəti sayəsində işğaldan azad olunmuş bütün ərazilərdə müasir tələblərə cavab verən, ləyaqətli həyat və fəaliyyət üçün əlverişli şərait yaradılmaqla bu torpaqlardan köçkün düşən insanlarımız tezliklə öz ata-baba yurdlarında məskunlaşacaqlar.

Bu gün Azərbaycan dünyada dialoq və əməkdaşlıq məkanı kimi tanınır, mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri sayılan BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının bu ilin noyabr ayında Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar ölkəmizə beynəlxalq ictimaiyyət tərəfindən göstərilən böyük etimadın bariz nümunəsidir. Bu etimadın qazanılması Prezident İlham Əliyevin 20 ildən çoxdur ki, istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə uğurla həyata keçirdiyi genişəhatəli fəaliyyətin nəticəsidir.

Yeni Azərbaycan Partiyası hədəflərini ölkədə və beynəlxalq aləmdə yaranmış vəziyyəti və mövcud reallıqları nəzərə alaraq müəyyən edir. Əgər biz əvvəllər ölkəmizin ərazi bütövlüyünün təmin edilməsini əsas hədəf götürürdüksə, indi bu istiqamətdə hədəfimiz Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusiya quruluşunun hər cür təhdidlərdən qorunmasıdır.

Partiyamızın seçki platformasında xarici siyasət sahəsində yeni hədəf Türk dövlətləri ilə ikitərəfli əlaqələrin və Türk Dövlətləri Təşkilatı çərçivəsində çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsidir. Ekoloji tarazlığın qorunması və ətraf mühitin mühafizəsi sahəsində də yeni hədəflər müəyyən edilmişdir. Bunlar iqtisadi inkişafla ekoloji mühit arasında tarazlığın qorunması, yeni dayanıqlı enerji mənbələrinin üstünlük verilməsi, "yaşıl enerji"nin dünya bazarlarına nəqli və digərləridir.

Yeni Azərbaycan Partiyasının seçki platformasında bütün fəaliyyət istiqamətləri üzrə qlobal çağırışlar nəzərə alınmaqla çoxsaylı yeni hədəflər müəyyən edilmişdir.

**- Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi kimi seçicilərlə görüşlər keçirirsiniz. Təəssüratınız necədir?**

- Mən keçən əsrin 90-cı illərinin əvvəlində Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin rəhbərliyi altında məsul vəzifələrdə işləmişəm. 1992-ci ilin noyabr ayında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransının təşkil edilməsində fəal iştirak etmişəm və partiya yarandığı gündən onun üzvü olmuşam. Uzun illərdir ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvüyəm və partiyamızın səmərəli fəaliyyəti üçün əzmlə çalışıram. Partiyamız tərəfindən növbəti dəfə deputatlığa namizədliyim irəli sürülüb və buna görə son dərəcə qürurluyam.

Parlamentə üzv olduğum əvvəlki çağırışlarda uzun müddət Milli Məclisin Aqrar siyasət komitəsinə, VI çağırışda isə İntizam Komissiyasına rəhbərlik etmişəm. Deputat olduğum bu illər ərzində qanunvericilik bazasının təkmilləşdirilməsində fəal iştirak etməklə təşəbbüslər göstərmiş, seçicilərimin və digər vətəndaşlarımızın müraciətlərinə məsuliyyətlə yanaşaraq onların qaldırdığı problemlərin həll olunmasına çalışmışam. Bütün bunlar açıq və şəffaf şəraitdə baş verdiyindən seçicilər də xəbərdardır.

Hazırda təşviqat mərhələsində bütün görüşlərimiz xoş əhval-ruhiyyədə keçir. Seçicilər Ümummilli Liderimizin qurucusu olduğu, bu gün ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə məqsədyönlü fəaliyyətini uğurla davam etdirən Yeni Azərbaycan Partiyasına inam və etimadlarını ifadə edir, partiyamızı birmənalı şəkildə dəstəklədiklərini vurğulayırlar.

İnanırıq ki, bu seçkilər xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi, Heydər Əliyev yoluna sədaqətinin və Prezident İlham Əliyevin Zəfər yürüşünün davamına birmənalı dəstəyinin təsdiqi olacaqdır. Mən seçiciləri seçkilərdə fəal iştirak etməyə və xalqımıza mühüm uğurlar qazandırmış Yeni Azərbaycan Partiyasını dəstəkləməyə, birlikdə növbəti zəfərlərə doğru addımlamağa çağırıram.

# Yeni reallıqlar rifah, inkişaf və qələbələr vəd edir



**125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi İmamverdi İsmayılov yap.org.az saytına müsahibə verib.**

**- İmamverdi müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm ümumxalq Zəfərindən sonra ilk dəfə bütün ölkə ərazisində keçirilən parlament seçkilərinin önəmi barədə nə deyə bilərsiniz?**

- Hər bir seçki prosesi ölkədə mövcud olan ictimai-siyasi ab-havanın və mövcud reallıqların təqdimatıdır. Seçkilərin növbədənkənar keçirilməsini şərtləndirən mühüm amillərdən biri də artıq müəyyənləşdirilən hədəflərə nail olunması və yeni çağırışların gündəmə gəlməsidir.

Cari il fevralın 7-də müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edən prezident seçkiləri keçirildi. Bu, təbii ki, dövrün çağırışı idi. Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi Zəfərə imza atdı, ötən il isə ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etdik. Dövlət başçısı İlham Əliyev bu ilin 10 yanvar tarixində yerli televiziya kanallarına müsahibəsində "Bu gün ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycanımızdan son 20 illik fəaliyyətə nəzər salsaq, hansı mənzərə canlanır? Biz bu 20 ildə haradan haraya gəlmişik" sualını cavablandırarkən bu çağırışı etdi ki, bugünkü reallıqları 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik. Çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı.

Artıq dörd ilə yaxındır ki, tarixi Zəfərimizin yaratdığı reallıqlardan, Azərbaycanın regionda və beynəlxalq müstəvidə möhkəmlənən mövqeyindən, yeni əməkdaşlıq formatlarının müəllifi kimi yeni dostlar, tərəfdaşlar və yüksək nüfuz qazanmasından, böyük ailə kimi dəyərləndirdiyi Türk dünyasının birliyinə verdiyi töhfələrdən, Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsindən və digər möhtəşəm uğurlarımızdan qürurla bəhs edirik.

Bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Bu, həm daxili siyasət prioritetlərinin düzgün seçilməsi, həm də müasir çağırışlara uyğun səmərəli xarici siyasət həyata keçirilməsinin real, məntiqi və qanunauyğun nəticəsidir.

Bu gün ölkəmizin qarşısında dayanan vəzifələr yeni dövrün çağırışları və hədəflərini əks etdirir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, yeni dövrə uğurla başladıq, uğurla da davam edəcəyik.

Təbii ki, bu uğurlar qanunverici orqanda da yenilikləri, təkmilləşməni zərurətə çevirir. Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı təşəbbüsü cəmiyyətdə təqdirlə qarşılandı. Dövlət başçısı İlham Əliyevin Sərəncamı əsasında 2024-cü il 1 sentyabr tarixində keçiriləcək növbədənkənar parlament seçkiləri yeni dövrün çağırışı olmaqla Azərbaycanın demokratik inkişaf tarixində yeni səhifə açacaq.

**- Qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası seçkilərə hansı reallıqlar fonunda qatılır?**

- Seçkilərə qatılan hər bir siyasi partiyanın seçki platforması onun uğurlarının və qarşıdakı dövr üçün hədəflərinin təqdimatıdır. Yeni Azərbaycan Partiyasının "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə təqdim olunan seçki platformasında Azərbaycanın bütün sahələrdə qazandığı nailiyyətlərə diqqət yetirilir və qarşıdakı dövrün hədəfləri açıqlanır.

İnkaredilməz reallıqdır ki, ölkə həyatının bütün sahələrini əhatə edən islahatlar strategiyası Azərbaycanı modernləşdirib və idarəetmənin səmərəliliyini artırıb. İdarəçilik sistemində təkmilləşmə uğurlarımızın davamlılığını şərtləndirən mühüm amillər sırasındadır. Yeni mərhələdə islahatların dərinləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Bu islahatlar iqtisadi idarəetmənin köklü səviyyədə müasirləşməsinə, inkişafın yeni hərəkətverici qüvvələrinin təşəkkül tapmasına və hər bir Azərbaycan vətəndaşının rifahının yüksəlməsinə zəmin yaradacaq.

Son 30 ilin uğurları əsasında qeyd edə bilərik ki, Azərbaycan bu gün dünyanın dinamik inkişaf edən ölkələri sırasında yer alır. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" ilə başlanğıcı qoyulan bu inkişaf yolu sonrakı dövrdə, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanmasını şərtləndirdi. Əməkdaşlığın coğrafiyası genişlənərək regional çərçivədən çıxdı, beynəlxalq xarakter aldı. Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi. Bu gün artıq "yaşıl enerji"yə keçiddən bəhs edirik. Azərbaycan bu ilin noyabr ayında bu sahədə də təcrübəsini tərəfdaşları ilə bölüşəcək. Şübhə yoxdur ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a uğurla ev sahibliyi edəcəkdir. Bu mötəbər beynəlxalq tədbir ölkəmizin sülh və tərəqqi tərəfdarı olduğunu, qlobal məsələlərin həllində fəal rol oynadığını bir daha nümayiş etdirəcək, Azərbaycan reallıqlarının təqdimatı üçün daha bir mühüm platforma olacaqdır.

Azərbaycanın iqtisadiyyatını düzgün əsaslar üzərində qurması beynəlxalq maliyyə qurumlarının hesabatlarında da yüksək dəyərləndirilir. Hazırda ölkəmiz bu hesabatlarda yüksək rəqabət qabiliyyətinə malik dövlət kimi mövqeyini möhkəmləndirir. Partiyamızın seçki platformasında qeyd edildiyi kimi, müasir dövrdə müstəqil Azərbaycan dövlət başçısı İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir. Uğurlu sosial-iqtisadi siyasətin və sistemli islahatların həyata keçirilməsi nəticəsində əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcmi ildən-ilə artır. Ölkəmiz bir çox postsovet dövlətləri ilə müqayisədə həm ümumi iqtisadi gücünə, həm də milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur.

İşğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işləri Azərbaycanın iqtisadi imkanlarının genişlənməsinə xidmət edir. Həmin ərazilərdə zəruri infrastruktur obyektləri ilə paralel olaraq yaşayış kompleksləri, məktəb binaları tikilib istifadəyə verilir, yenilərinin təməli qoyulur, sənaye parkları yaradılır. Bütün bunlar Böyük Qayıdışın geniş perspektivindən xəbər verir. Böyük Qayıdış Proqramının birinci mərhələsinin başa çatacağı 2026-cı ildə 140 min soydaşımızın doğma yurd-yuvasına qayıdışı nəzərdə tutulub.

Azərbaycanın uğurlarında öz payı - məxsusi rolu olan Yeni Azərbaycan Partiyasının yeni Proqramında, həmçinin "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı əsasında təqdim edilən seçki platformasında da Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri və qarşıdakı dövrün hədəfləri öz əksini tapıb. Platformada qeyd edildiyi kimi, Böyük Qayıdış 30 il ərzində Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən Azərbaycan xalqının ən böyük arzularından idi. Bu gün qürur və iftixarla qeyd edirik ki, Heydər Əliyev yolunun Müzəffər davamçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər nəticəsində soydaşlarımızın arzuları gerçəkliyə çevrilir - Böyük Qayıdış prosesi uğurla reallaşdırılır. Bu proses çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifələrindən birinə çevrilməklə daha güclü yeni Azərbaycanın parlaq gələcəyinə töhfə verəcəkdir.

Qarşıda duran bütün hədəflər yüksək səviyyədə yerinə yetirilir, gələcəyə inamla addımlayırıq. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, əldə edilən uğurlarla kifayətlənməməli, daim irəliyə baxmalıyıq.

**- İmamverdi müəllim, Yeni Azərbaycan Partiyasının namizədi olaraq seçicilərə hansı çağırışı edərdiniz?**

- Azərbaycan xalqı 2024-cü ilin fevral ayında keçirilmiş prezident seçkilərində yeni dövrün uğurla davam etməsinə öz birmənalı dəstəyini ifadə etdi. Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin inamlı qələbəsi xalqın Heydər Əliyev yoluna, dövlət başçısının məqsədyönlü və uzaqgörən siyasətinə dərin inam və etimadını bir daha nümayiş etdirdi.

Yeni Azərbaycan Partiyası daim Azərbaycanın uğurlu gələcəyi üçün çalışır. Partiya Heydər Əliyev ideyalarının həyata keçirilməsinə öz layiqli - dəyərli töhfələrini verir. Seçicilərə əsas çağırışım budur ki, sentyabrın 1-də seçki məntəqələrinə gələrək öz səsvermə hüquqlarından istifadə etsinlər, dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olsunlar. Yeni və daha qüdrətli Azərbaycan naminə birliyimizi, həmrəyliyimizi bir daha nümayiş etdirək!

# "Xalq-Lider birliyi milli tərəqqinin qarantıdır"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 95 saylı Zərdab-Kürdəmir-Ucar seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səliqə İsmayılovanın YAP Zərdab rayon təşkilatının qərargahında qadın seçicilərlə görüşü keçirilib.

YAP Zərdab rayon təşkilatının sədri İlkin Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan bu gün Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində yeni zirvələr fəth edir: "Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanıb, qalib və qüdrətli dövlət kimi tanınır. Bu, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir".

Deputatlığa namizəd Səliqə İsmayılova YAP-ın seçki platforması haqqında məlumat verib. "Xalq-Lider birliyi milli tərəqqinin qarantıdır. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə qazanılan uğurların nəticəsidir ki, respublikamızın qüdrəti və beynəlxalq miqyasda nüfuzu daha da artıb. Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir", - deyə deputatlığa namizəd bildirib.



Görüşdə çıxış edən təşviqat qrupunun üzvləri Gülnaz Məmmədova və Xalidə Xəlilova Azərbaycanın tərəqqisində Yeni Azərbaycan Partiyasının rolundan bəhs edərək seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər də öz növbəsində Azərbaycanın gələcək uğurları naminə Yeni Azərbaycan Partiyasını dəstəklədiklərini və partiyanın namizədinə səs verəcəklərini vurğulayıblar.

Deputatlığa namizəd Səliqə İsmayılova, həmçinin Zərdab şəhər Heydər Əliyev parkında seçicilərlə görüş keçirib.

# "Uğurlarımız davamlıdır!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Müşfiq Məmmədlinin YAP Xızı rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.



YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev qeyd edib ki, sistemli və davamlı xarakter daşıyan siyasi, hüquqi və sosial-iqtisadi islahatlar Azərbaycanın tərəqqisini və qarşıda duran bir çox milli hədəflərin reallaşmasını mümkün edib.

Deputatlığa namizəd Müşfiq Məmmədli YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, müasir dövrdə müstəqil Azərbaycan dövlət başçısı İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir: "Bütün digər sahələrlə yanaşı, sosial siyasət sahəsində də islahatlar davamlı xarakter daşıyır və əhalinin rifahının daha da yaxşılaşması istiqamətində ardıcıl tədbirlərin reallaşdırılması nəzərdə tutulub".




Görüş iştirakçılarından Sərvaz Rüstəmov, Ümman Rüstəmli və Əzət Qarayeva seçkilərin önəminə diqqət çəkərək seçiciləri fəal olmağa və YAP-ın namizədinə səs verməyə çağırıblar. "Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizə tarixi nailiyyətlər qazandıracaq. Uğurlarımız davamlıdır!", - deyə vurğulanıb.

# "YAP qalib ölkəmizin lider partiyasıdır!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 121 saylı Laçın seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rövşən Muradov şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə görüşüb.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub.

YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov şəhid ailələri və müharibə iştirakçılarının dövlətin hərtərəfli qayğısı ilə əhatə olunduğunu vurğulayıb: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, şəhidlər bizim qəlbimizdə əbədi yaşayacaq!".

Çıxış edən deputatlığa namizəd Rövşən Muradov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Azərbaycan dövləti və cəmiyyəti hər zaman mübariz Vətən övladlarının şücaətini yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur: "Şəhidlərimizin ruhunun şad olduğu indiki məqamda dövlətimizin qüdrəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi Azərbaycanı yeni möhtəşəm nailiyyətlərə aparacaq, tarix güclü Azərbaycanın yeni şanlı qələbələrinə şahidlik edəcəkdir".



Görüşdə təşviqat qrupunun üzvləri Rafiq Nağıyev, Səlim Səlimbəyli, Murad Hüseynov, Babək Aslanov, Hacı Nizami Rzayev, Həcər Paşayeva çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər isə "Tarixi Qələbəmizdən sonra yeni hədəflərə nail olmaq üçün seçimimiz bir daha Yeni Azərbaycan Partiyası olacaq. YAP qalib ölkəmizin lider partiyasıdır" ,- deyə vurğulayıblar.

Deputatlığa namizəd Rövşən Muradov fərdi görüşlər də keçirib.

# Xalqımızın rifahı, ölkəmizin firavanlığı üçün...

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 111 saylı Zaqatala-Balakən seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Vüsalə Mahmudovanın YAP Zaqatala rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov qeyd edib ki, müasir Azərbaycan reallığı məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır: "Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi - cənab İlham Əliyev yerinə yetirdi. Çoxəsrlik dövlətçilik tariximizin ən qüdrətli Azərbaycanı Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin siyasətinin nəticəsidir".



Deputatlığa namizəd Vüsalə Mahmudova YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir: "Çünki müasir müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır".

O qeyd edib ki, qalib və qüdrətli Azərbaycan dövləti Heydər Əliyev yolunun Müzəffər davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə hədəflərinə doğru inamla irəliləyir: "Yeni dönəmdə daha möhtəşəm uğurla şahidlik edəcəyik".



Təşviqat qrupunun üzvü Tahir Məmmədov çıxış edərək YAP-ın ümumxalq və qələbələr partiyası kimi yüksək nüfuza malik olduğunu vurğulayıb. "Xalqımızın rifahı, ölkəmizin firavanlığı üçün bir daha Yeni Azərbaycan Partiyasına etimad göstərək!", - deyə çağırış edilib.

Görüşdə çıxış edən seçicilər YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# Yeni sərmayə fondu...

## Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti ölkələr arasında investisiyaları cəlb edəcək

Avqustun 22-də Daşkənddə Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin ofisinin açılışı olub. Yeni iqtisadi struktur Azərbaycan və Özbəkistan arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi və investisiya fəaliyyətinin fəallaşdırılmasını təşviq edəcək, iki dövlətin işgüzar dairələri arasında birbaşa əlaqələrin inkişafında vasitəçilik funksiyasını həyata keçirəcək. Həmçinin dövlət və özəl sektorun nümayəndələrini vahid sərmayə platformasında birləşdirərək onların qarşılıqlı sərmayə qoyuluşlarının istiqamətlərini müəyyənləşdirərək sərmayə proqramlarının icrasında koordinasiyaedici rol oynayacaq.

Qeyd edək ki, Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında" 2022-ci il 21 iyun tarixli Bəyannaməni və "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və mühafizəsi haqqında" Sazişə əsasən təsis edilib. Yeni qurum 2023-cü ilin dekabrında Özbəkistanda "Azerbaijan Uzbek İnvestment" MMC Birgə Müəssisəsi (AUİC) kimi qeydiyyatdan keçib. Qurumun maliyyə portfeli hər iki ölkənin resurs imkanları hesabına formalaşır və iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən şirkətlərin kapitalında 49 faizədək paya sahib olmaqla biznesin maliyyələşməsini təmin edəcək. Ofisi Daşkənd şəhərindəki "Trilliant Tower 1" Biznes Mərkəzində yerləşən investisiya şirkətinin nizamnamə kapitalı 500 milyon dollardır. Bu, ilkin maliyyə kapitalıdır və qarşıdakı illərdə layihələrin və iqtisadi prioritetlərə uyğun nizamnamə fondunun artırılması nəzərdə tutulur. Hüquqi şəxs statusuna malik şirkət müqavilələr bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və öhdəliklər götürmək, məhkəmədə, arbitrajda və münsiflər məhkəməsində iddiaçı və cavabdeh olmaq hüququna malikdir.

Fondun nizamnamə kapitalı layihələrə investisiya qoyulduqca artırılacaqdır və birgə müəssisə statusunda istehsal, emal, ixracyönümlü sahələrə daha çox dəstək verəcək. Əsas prioritet idxalı əvəz edən və yüksək texnologiyalı məhsul istehsalının təşviqidir ki, bu da hər iki ölkənin strateji maraqlarına uyğundur, çünki yerli istehsal qarşılıqlı mübadilə olunmaqla iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına da töhfə verəcək və başqa dövlətlərdən mal asılılığını azaldacaq.

Şirkətin strateji fəaliyyət istiqamətləri olduqca genişdir və sərmayələrin təşviqi üçün bütün maliyyə, investisiya, kapital fondları ilə birgə əlaqələndirici missiyanı yerinə yetirmək niyyətindədir. Belə ki, Azərbaycan və Özbəkistan ərazisində, investisiya qoyulan layihələrdə aparıcı sənaye tərəfdaşının olması şərtilə, qarşılıqlı maraq doğuran mövcud və yeni yaradılmış təsərrüfat subyektlərinin nizamnamə kapitalında minoritar payların və səhm paketlərinin, həmçinin həmin subyektlərin



istiqrazlarını və digər qiymətli kağızların əldə edilməsi, kreditlərin ayrılması və qiymətli kağızların buraxılışı da nəzərdə tutulur ki, bu da şirkətə mühüm maliyyə institutu funksiyasının səlahiyyətlərinin verilməsi deməkdir.

İnvestisiya şirkəti Azərbaycan və Özbəkistan arasında birgə sərmayələrin təşviqi ilə yanaşı, üçüncü ölkələrin ərazisində də qarşılıqlı maraq doğuran istiqamətlərdə ixracyönümlü müəssisələrin yaradılması üzrə birgə layihələrin maliyyələşdirilməsində fəal rol oynayacaq. Sözsüz ki, burada əsas coğrafi istiqamətlər üzrə Türk dövlətləri nəzərdə tutulur. Türk Dövlətləri Təşkilatının Qarabağ Bəyannaməsindən irəli gələn vahid sərmayə proqramlarının həyata keçirilməsinə töhfə verməklə investisiya şirkəti türkdilli ölkələrin coğrafiyasında aqrar-sənaye kompleksi, su təchizatı sektoru, səhiyyə sektoru, avtomobil sənayesi, elm, tədqiqat və texnologiya, təbii qaz sənayesi, geyim və tekstil sənayesi, mədənçıxarma və metallurgiya sənayesi və digər prioritetlərə sərmayə cəlb edə bilər. Bu baxımdan şirkətin maliyyə kapitalının daha da böyüyərək gələcəkdə dayanıqlı iri sərmayə institutuna çevrilməsi də istisna deyil. Bu strateji plana əsasən, birgə investisiya layihələrinin həyata keçirilməsi üçün yeni maliyyə alətlərindən istifadə daha da genişləndiriləcək və bu amil ölkələrin ixrac-idxal imkanlarından daha səmərəli istifadəsinə zəmin yaradacaq. Eyni zamanda, iki türk dövlətinin müştərək investisiya proqramlarında regional rolunu artıracaq.

Azərbaycan və Özbəkistan son illərdə ikitərəfli münasibətlərin inkişafı və keyfiyyətcə yeni mərhələyə çatması üçün qarşılıqlı təmasları daha da artırmaqdadır. Ölkələr arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirilməsi birgə əməkdaşlığın gündəliyini daha da genişləndirib və tərəflər sərmayə təşəbbüslərini artırmaq üçün ortaq maliyyə institunun imkanlarından faydalanmaq niyyətindədir. Məhz bu baxımdan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti iqtisadi əməkdaşlığın artırılması üçün birgə layihələrin təşviqi, iqtisadiyyatın, sənayenin müasirləşdirilməsi və inkişafı, ikitərəfli iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədi ilə yaradılmış Azərbaycan-Qırğız İnkişaf Fondu bu hədəflərə çatmaqda ən optimal maliyyə mənbəyi rolunu oynayacaq.

**E.CƏFƏRLİ**

# Zəngəzur dəhlizində işlər yekunlaşır

**2025-ci ildə istifadəyə hazır olacaq Horadiz-Ağbənd dəmir yolu Zəngəzurun açılışını daha da labüdləşdirir**

Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi üzrə işlərin 57 faizi başa çatdırılıb, o cümlədən dəmir yolu xəttinin layihələndirilməsi işləri 83 faiz yerinə yetirilib. "Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib ki, uzunluğu 110,4 km olan dəmir yolu xəttinin təhkim zolağı və xüsusi mühafizə zonası boyunca 60 metr enində ərazilərin minadan təmizlənməsi başa çatdırılıb, əlavə genişlənmələrin tələb olunduğu hissələrin isə minadan təmizlənməsi davam etdirilir. Eyni zamanda dəmir yolu xəttinin 72-82-ci km hissəsində yolun oxunun dəyişdirilməsi səbəbindən minatəmizləmə işləri təkrar yerinə yetirilib. 2024-cü ilin sonuna kimi Horadiz-Ağbənd dəmir yolu xəttində tikinti işlərinin 60 faizdən çoxu, layihələndirmə işlərinin isə 90 faizinin tamamlanması nəzərdə tutulur ki, bu il ərzində dəmir yolunda əsaslı işlərin böyük əksəriyyəti yekunlaşacaq.

Zəngəzur dəhlizinin ən mühüm nəqliyyat qovşaqlarından biri olan Horadiz-Ağbənd dəmir yolu xəttində tunel və keçidlərin inşası da qrafikə uyğun sürətlə həyata keçirilməkdədir. Yolun ən strateji nöqtələrindən biri olan 106-cı km-də inşa edilən tunelin uzunluğu 1071 metrdir və burada ən qabaqcıl texnoloji avadanlıqlardan istifadə edilməklə bütün zəruri infrastrukturlar yaradılır. Yeni Avstriya üsulu ilə yerinə yetirilən işlər tunelin görkəm







və relyef baxımından strateji imkanlarını artırır, tnel boyunca ən müasir texniki təchizatların yaradılması gələcəkdə dəmir yolu xəttinin elektrikləşdirilməsində də mühüm əhəmiyyət kəsb edəcək. Bundan başqa, Horadiz-Ağbənd dəmir yolu xəttinin 79-cu km-də yerləşən strateji keçidlərdən biri olan 771 metr uzunluğundakı 23 aşırımlı körpünün tikintisi dünyadakı ən müasir tikinti texnologiyaları ilə davam etdirilir və işlərin böyük bir hissəsi başa çatıb.

2025-ci ildə yekunlaşacağı gözlənilən Horadiz-Ağbənd dəmir yolu artıq tam istifadəyə hazır olacaq və bu, Zəngəzur dəhlizinin də işə düşməsinə əsaslı zəmin yaradacaq.

Yeri gəlmişkən, Zəngəzur dəhlizinin bir hissəsi kimi xüsusi əhəmiyyət daşıyan Mincivanda da işlət sürətlə davam etdirilir və zəruri infrastrukturlar, logistika təminatlarının gələn ildə tamamlanması nəzərdə tutulur. Araz çayının sahilində - respublika əhəmiyyətli Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yolu və Horadiz-Ağbənd dəmir yolu xətti üzərində yerləşən Mincivan böyük bir dəmir yolu şəbəkəsi ailəsinə qoşulmaqla region ölkələri, Türk dövlətləri üçün xüsusi əhəmiyyət daşıyacaq.

Beləliklə, Zəngəzur dəhlizinin Azərbaycan ərazisi hissəsində 2 əsas strateji nöqtəsi olan Horadiz-Ağbənd və Mincivanın logistika imkanlarının yaradılması artıq Zəngəzur dəhlizinin açılışını fiziki olaraq labüdləşdirir. Son dövrlərdə Çinin müəllifi olduğu "Bir kəmər, bir yol" təşəbbüsünün ən strateji qovşağı - Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) quruculuğu istiqamətində formalaşdırılan reallıqlardan doğan iqtisadi-siyasi zərurətlər də Zəngəzurun istifadəyə verilməsi tezliyini şərtləndirir.

Göründüyü kimi Azərbaycan Zəngəzur transkommunikasiya xəritəsinin bütün fiziki strukturlarını yekunlaşdırmaqdadır. Bu isə qlobal nəqliyyat daşıyıcılarının da planlarını həyata keçirmək üçün əlverişli fürsətlər yaradır. Belə ki, dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda öz aktual landşaftını möhkəmləndirən nəqliyyat-logistika şəbəkələrinin ən hərəkətli və rentabelli xətti Zəngəzur dəhlizidir və bu, "Bir kəmər, bir yol" nəqliyyat konseptinə tam uyğundur. Zəngəzur dəhlizinin tezliklə reallaşmasını dəstəkləyən ən təşəbbüskar ölkələrdən biri də Çindir. Çin-Asiya-Azərbaycan qovşağı olan Orta Dəhliz Zəngəzurla tamamlanaraq Türkiyəyə tranzit qapısı açaraq Avropaya istiqmətlənir. Hazırda bu tranzit dəhlizin axıcılığı və daşınma rentabelliyi durmadan artır və Orta Dəhlizlə Çindən gələn yüklərin Qazaxıstandan keçərək Xəzər dənizinə, Azərbaycana və oradan da Gürcüstan və Türkiyə üzərindən Avropadakı son təyinat ölkələrinə daşınma həcmləri dayanmadan artır. Bu baxımdan Zəngəzur dəhlizinin Orta Dəhlizə inteqrasiya olunması Yeni İpək Yolu ilə daşınmaların vaxt və iqtisadi səmərəlilik baxımından daha da yaxşılaşmasına şərait yarada bilər. Bu geosiyasi və iqtisadi

gerçəkliklərin fonundan Zəngəzurun logistik təsvirini belə səciyyələndirmək mümkündür:

- Dəhliz qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaldır.
- Böyük bir coğrafiyada iqtisadi inteqrasiyanı böyütməklə regional inkişafa ciddi təkan yaradır.
- Beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına töhfə verir.

Beləliklə, Zəngəzur dəhlizi Azərbaycanın Naxçıvanla yol-nəqliyyat bağlantısının təmin edən kommunikasiya vasitəsi anlayışından daha güclü iqtisadi-siyasi mahiyyət daşıyır və Çindən Avropaya sürətli və qısa makrokommunikativ sistemə çevrilir. Eyni zamanda, bu dəhliz Azərbaycanın yeni nəqliyyat strategiyasının ən mühüm hissəsi olmaqla çoxşaxəli və balanslaşdırılmış tranzit siyasətini ifadə edərək birbaşa sosial rifah və geniş həmrəylik, iqtisadi əməkdaşlıq formatına əsaslanır.

**ELBRUS CƏFƏRLİ**

# Silahlanma yarışı...

## Harrisin vədi: Dünyanın bir nömrəli ordusunu yaradacağam

ABŞ-də cari il noyabrın 5-də keçiriləcək prezident seçkilərində Demokratlar Partiyasından namizədliyi rəsmən təsdiqlənən vitse-prezident Kamala Harris seçki marafonuna nisbətən gec qoşulmasına rəğmən, böyük sürət yığmağa nail olub. Başlanğıcda Respublikaçılar Partiyasının namizədi Donald Trampla müqayisədə "zəif bənd" təsisi bağışlayan vitse-prezident marafonda inamla irəliləyərək artıq rəqibindən önə keçib. Bu günlərdə "The Economist" jurnalı və "YouGov" ictimai rəyi araşdırma institutunun keçirdikləri sorğunun nəticələri açıqlanıb. Sorğu iştirakçılarının 46 faizi prezident seçkilərində Harrisi dəstəkləməyə hazır olduğunu bildirib, 43 faizi isə Trampa üstünlük verib. Eyni zamanda, Kamala Harrisin seçki qərargahı bir ay ərzində təxminən 500 milyon dollar vəsait toplamağa nail olub. Bildirilir ki, Harrisin və seçki yarışından çəkilən Prezident Cozef Baydenin topladığı vəsaitin ümumi məbləği 1 milyard dolları ötüb. Donald Trampın seçki qərargahında isə ümumilikdə 327 milyon dollar vəsait var.

Analitiklər bildirirlər ki, Harrisin qısa müddətdə seçki marafonunun liderinə çevrilməsi onun komandasının görüşlərə yaxşı hazırlaşması, həmçinin vitse-prezidentin verdiyi vədlərlə bağlıdır. Kamala Harris sanki ABŞ cəmiyyətinin nəbzini tutaraq vədlərini verir ki, bu da onun populyarlığını artırır. O cümlədən Kamala Harrisin son olaraq ordu quruculuğu ilə bağlı vədi də böyük rezonans doğurub. Kamala Harris prezident seçkilərində qalib gələcəyi təqdirdə dünyanın ən güclü ordusunu yaratmağa söz verib. Kamala Harrisin bununla bağlı fikirləri müxtəlif baxış bucaqlarından, o cümlədən də dünyadakı mənzərə nəzərə alınmaqla dəyərləndirilir.

### Dünya üzrə sürətlə silahlanma yarışı

Hazırda dünya miqyasında sanki bir sürətlə silahlanma yarışı gedir. 2023-cü ildə qlobal hərbi xərclər 2022-ci ilə nisbətən 6,8 faiz artaraq 2,443 trilyon dollara çatıb. Bu, 2009-cu ildən bəri ən böyük artım olub. Bu barədə Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) yaydığı hesabatda bildirilib. Sənəddə qeyd olunub ki, müharibə, artan gərginlik və qeyri-müəyyənlik fonunda qlobal hərbi xərclər artır. Artım bütün regionlarda - Avropada, Asiyada və Okeaniyada, eləcə də Yaxın Şərqdə müşahidə olunub. Ötən il ümumi hərbi xərclər qlobal ÜDM-in 2,3 faizini təşkil edib. Bu sahədə ən çox vəsait xərcləyən ilk beş ölkə ABŞ, Çin, Rusiya, Hindistan və Səudiyyə Ərəbistanı olub. Qlobal hərbi xərclərin 61 faizi bu ölkələrin payına düşüb. Qlobal reytinqin zirvəsində olan həm ABŞ, həm də Çin 2023-cü ildə hərbi xərclərini artıraraq müvafiq olaraq bu sahəyə 916 milyard və 296 milyard dollar ayırıblar. 2023-cü ildə Rusiyanın hərbi xərcləri 24 faiz artaraq 109 milyard dollar təşkil edib ki, bu da 2014-cü illə müqayisədə 57 faiz çoxdur. Hindistan ən böyük





hərbi büdcəyə malik ölkələr arasında dördüncü yerdə qərarlaşıb: Bu ölkə hərbi məqsədlərə 83,6 milyard dollar xərcləyib ki, bu da 2022-ci illə müqayisədə 4,2 faiz çoxdur.

Bütövlükdə, hazırda ABŞ dünyanın ən güclü orduları sıralamasında ilk onluğun ön sırasında gəlir. Onluğu ardıcıllıqla Rusiya, Çin, Hindistan, Böyük Britaniya, Cənubi Koreya, Pakistan, Yaponiya, Fransa və İtaliya tamamlayır. Qardaş Türkiyə bu sıralamada 11-ci yerdə qərarlaşıb.

"The New York Times" qəzetinin məlumatına görə, Harris ordu quruculuğu strategiyasını Çikaqoda keçirilən Demokrat Partiyasının Milli Qurultayında çıxışı zamanı bildirib. "Baş komandan kimi mən Amerikanın həmişə dünyanın ən güclü, ən ölümcül ordusuna sahib olmasını təmin edəcəyəm", - deyə Harris Demokratlar Partiyasından prezidentliyə namizəd olmağa razılıq verdiyi çıxışında deyib Prezidentliyə namizəd həmçinin İsrail, Ukrayna və NATO müttəfiqlərini dəstəkləməyə söz verib.

Vitse-prezidentin indiki həssas dönəmdə "bir nömrəli ordu" quruculuğundan bəhs etməsi təsadüfi deyil. Bununla o həm ABŞ cəmiyyətində öz reputasiyasını yüksətməyə çalışıb, həm də bütövlükdə ABŞ-nin iddialarını dünyanın diqqətinə çatdırıb və ölkənin rəqiblərinə mesajlar verib.

### ABŞ-nin iddiaları

Bu mesajlardan o qənaət hasil olur ki, ABŞ dünya üzrə hərbi hegemonluğunu başqa bir dövlətlə bölüşmək niyyətində deyil. Xatırladaq ki, bundan əvvəl ABŞ prezidenti Co Baydenin mart ayında Çinin nüvə imkanlarının genişləndirilməsinə yönəlmiş məxfi nüvə strateji planını təsdiqlədiyi məlum olub. Sənəddə qeyd olunur ki, 2025-ci ilin yanvarında vəzifəsinin icrasına başlayacaq ABŞ-nin yeni prezidenti üç il əvvəlki vəziyyətdən köklü şəkildə fərqli və olduqca qeyri-sabit nüvə mühiti ilə üzləşəcək və ölkə ölüm saçan bu rəqabətdə öndə olmalıdır. ABŞ-nin yeni nüvə strategiyası eyni zamanda Rusiya, Çin və Şimali Koreyanı cilovlamağa yönəlib. Qeyd olunur ki, bu, ABŞ-nin nüvə siyasəti üçün görünməmiş çağırışdır.

**MÜBARİZ**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Şəhər günün mübarək, Laçın!

Özündə “gözəllik”, “şux qamət” mənalarını ehtiva edən “laçın” sözü bizim üçün həm də ölkəmizin dilbər guşələrindən olan Laçın şəhərinin adını daşıması ilə əlamətdardır. Elə şəhərə bu ad da təbiətinin təkrarsız gözəlliyinə, dağlar qoynunda qərar tutmasına görə verilib. Xatırladaq ki, Laçın şəhərinin əsası 1923-cü ildə qoyulub və yazıçı Tağı Şahbazi Simurqun təşəbbüsü ilə ona “Laçın” adı verilib. 2024-cü ildə isə eyniadlı rayon təsis edilib. İşğaldan azad edildikdən sonra rayonun və şəhərin tarixində yeni bir dövr başlayıb. 26 avqust təqvimdə Laçın şəhəri günüdür.

## İşğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri

Vətən müharibəsində işğaldan azad edilən ərazilərin hər qarışı bizim üçün son dərəcə əzizdir. Biz düz otuz il ərzində yurd yerlərimizə, doğma kəndlərimizə, şəhərlərimizə qayıtmağın həsrəti ilə yaşamışıq. 44 günlük müharibədə şanlı Ordumuzun şücaəti ilə əldə olunan böyük Qələbə sayəsində bu həsrətə son qoyulub və ölkəmizin ərazi bütövlüyü təmin olunub.

Xalqımızın işğaldan azad olunan ərazilərə böyük bağlılığı var. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. İşğaldan azd edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi həm də böyük Qələbəmizin təbliği, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi anlamına gəlir. Bu Qələbəni heç kəs bizə hədiyyə etməyib. Onu igid hərbiçilərimiz canları, qanları hesabına qazanıblar. Xaincəsinə torpaqlarımıza soxulan düşmən cəzalandırılmalı idi və Azərbaycan Ordusu bunu layiqincə etdi. Silahlı Qüvvələrimiz Vətən müharibəsində misilsiz şücaətlər göstərərək 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında geri qaytardı. Alınmaz qala sayılan Şuşanın, Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Hadrutun, Xocavəndin geri qaytarılması uğrunda gedən döyüşlərdə əsgər və zabitlərimiz misilsiz qəhrəmanlıqlar göstərdilər. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Dövlətimizin başçısının imzaladığı sərəncamda da vurğulandığı kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük Qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu. Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunur. Siyahını təqdim edirik:

26 avqust - Laçın şəhəri günü,
4 oktyabr - Cəbrayıl şəhəri günü,
17 oktyabr - Füzuli şəhəri günü,
20 oktyabr - Zəngilan şəhəri günü,
25 oktyabr - Qubadlı şəhəri günü,
8 noyabr - Şuşa şəhəri günü,
20 noyabr - Ağdam şəhəri günü,
25 noyabr - Kəlbəcər şəhəri günü.

## Artıq Laçın həsrətinə son qoyulub

Düşmənin işğal planında Ermənistanla Azərbaycanın müəyyən sayda erməni əhalinin yaşadığı keçmiş Dağlıq Qarabağ bölgəsi arasında coğrafi bağlantını təmin etmək əsas məqsədlərdən biri kimi nəzərdə tutulmuşdu. 1992-ci ilin mayında Laçının,1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi ilə düşmən öz istəyinə çatdı. Laçının və Kəlbəcərin itirilməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında birbaşa əlaqə təmin olundu. Bundan istifadə edən ermənilər onilliklər boyunca Xankəndinə və işğal altına aldıqları ətraf rayonlara nəzarətsiz halda silah-sursat daşıdılar, ərazilərimizdə çirkin fəaliyyətlərlə məşğul oldular, burada terrorçu qruplaşmalar formalaşdırdılar. Eyni zamanda, digər ərazilərimizdə olduğu kimi, Laçında da qanunsuz məskunlaşma siyasəti həyata keçirməklə xaricdən gətirilən çoxlu sayda ermənini burada yerləşdirdilər. Ermənilər elə hesab edirdilər ki, bu torpaqlarda əbədi yaşayacaqlar.



Ancaq belə olmadı, düşmənin arzusu gözündə qaldı. Ordumuz üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq əvvəlcə Kəlbəcərdə, 2022-ci il avqustun 26-da isə Laçın şəhərində, eləcə də Zabux və Sus kəndlərində yerləşdi. 2022-ci il sentyabrın 21-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın şəhərinin mərkəzində üçrəngli bayrağımızı ucaltmaqla bizə sonsuz qürur hissi yaşatdı. Laçın şəhərində bayrağımızın ucaldılmasının böyük rəmzi məna daşıdığını bildirən dövlətimizin başçısı “Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıyıq və öz ərazi bütövlüyümüzü qoruyuruq, qorumuşuq, bərpa etmişik. Bütün dünyaya göstərə bilmişik ki, nəyə qadirik, torpaqlarımızı güc yolu ilə azad etmişik və bununla fəxr edirik”, - deyə vurğulayıb.

Postmüharibə dövründə Laçında yaşayış evlərinin bərpası, müasir infrastruktur qurulması ilə bağlı çoxsaylı layihələr reallaşdırılıb. Laçın şəhərinin və kəndlərin məskunlaşdırılması da uğurla davam etdirilir. Qeyd edək ki, Laçına ilk köç 20 ailədən ibarət olmaqla 2023-cü ilin mayında reallaşıb. İndiyədək ora köçürülən ailələrin sayı artıq 550-ni ötüb.

*Mübariz ABDULLAYEV*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# “Onlayn Azərbaycan”

Genişzolaqlı internetə çıxış (GZÇ) son zamanlar bütün dünyada yaxşı yaşam tərzinin tərkib hissələrindən biri kimi qəbul edilir. Məlumdur ki, pandemiya və insanların həyat tərzinin dəyişməsi onlayn iş, onlayn təhsil sistemindən geniş istifadəyə şərait yaratdı. Keyfiyyətli genişzolaqlı internet bizə yalnız çıxılmaz vəziyyətlərdə kömək olmadı, eyni zamanda istənilən ölkədə yaşayan şəxslərlə görüntülü danışmaq, yeni biliklərin yaranması, rəqəmsal dövlət xidmətlərinin əldə edilməsi kimi əlavə imkanlar yaratdı.

Bütün bunlar isə sürətli və keyfiyyətli internetə çıxışın olmasını tələb edir. Evdə internetə çıxış artıq Azərbaycan əhalisinin çoxunun həyatında adi bir hadisəyə çevrilib. İnternetə çıxış müxtəlif texnologiyalar vasitəsi ilə mümkündür. Ölkəmizdə tarixən ilk qurulmuş texnologiya ADSL-dir. Lakin ADSL texnologiyaları tədricən keçmişdə qalır və getdikcə dünya şəbəkə operatorları daha yüksək sürətli GPON texnologiyasına üstünlük verirlər.

Son illər Azərbaycanın nəinki paytaxtı, həmçinin müxtəlif rayonlarında GPON internetinə çıxış üçün işlər intensivləşib və bu təşəbbüs rəqəmsal dövlətin inkişafı üzrə dövlət proqramının bir hissəsinə çevrilib. Ucqar rayonlarda yaşayış ərazilərində optika vasitəsi ilə internetə qoşulmaların sayı artmaqdadır, yüksək sürətli qoşulmalar bir vaxtlar internetin ümumiyyətlə olmadığı və ya abunəçilərin mobil telefondan modem kimi istifadə etdiyi ərazilərə də çatır.

Ötən ay Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən “Onlayn Azərbaycan” layihəsi çərçivəsində 2024-cü ilin 6 ayı ərzində Azərbaycanda 0,8 milyon ev təsərrüfatı və biznes subyektinin genişzolaqlı internetə çıxış imkanı yaradılıb. Ümumilikdə ölkədə 2,8 milyon təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin olunub.

Artıq ölkənin 30 rayonunda 90%-dən çox, 23 rayonunda 70-90% arası və digərlərində isə 65%-ə qədər təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin edilib.

**2024-cü ilin ilk 6 ayı ərzində...**

Layihə müddətində ölkədə genişzolaqlı internetə çıxış imkanı əldə etmiş ev təsərrüfatı və biznes subyektlərinin sayı 12 dəfə artaraq 9%-dən 92%-ə yüksəlib. Cari ilin ilk 6 ayı ərzində 2020-ci illə müqayisədə 5 dəfə çox təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin edilib və toplam əhatə 26% artıb.

Sözügedən layihə çərçivəsində 2024-cü ilin sonunadək ölkə ərazisində bütün ev təsərrüfatı və biznes subyektlərinin GPON və digər genişzolaqlı texnologiyalar vasitəsilə genişzolaqlı internetlə təmin edilməsi, yüksəksürətli internetdən istifadənin genişləndirilməsi və sabit genişzolaqlı internet abunəçilərinin faizinin artırılması planlaşdırılır.

**Bərdədə də GPON texnologiyası yaradıldı**

“Onlayn Azərbaycan” layihəsi çərçivəsində Bərdə rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradılıb. Dünən nazirlikdən verilən məlumata görə, Bərdə şəhərində şəbəkənin tikintisi başa çatmaq üzrədir. Şəhər mərkəzində 12644 təsərrüfatdan 7000-ə yaxın ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır.

**Yeni qoşulmalar davam edir**

Ümumilikdə rayonda mövcud təsərrüfatların 90%-dən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 19649 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar davam etdirilir.

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi “Onlayn Azərbaycan” layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir.

**2024-cü ilin sonuna qədər...**




Göründüyü kimi, ölkəmizdə ev internetinin inkişafı kifayət qədər yüksək sürətlə gedir. GPON texnologiyası üzrə optik çıxış fəal şəkildə tətbiq edilir, yaşayış məntəqələrinin əhatə dairəsi artırılır, ucqar kəndlərdə yaşayan əhali də yüksəksürətli internetlə təmin edilir. Dövlət telekommunikasiya operatorları və özəl şirkətlər arasında dövlət-özəl tərəfdaşlıq modeli (PPP) ilə gücləndirilmiş birgə səylər nəticəsində 2024-cü ilin sonuna qədər minimum 25 Mbit/s internet sürəti ilə bütün ölkəni əhatə edən fiber-optik kabel şəbəkəsinin qurulması hədəflənib. Dövlətimiz bu planları və qlobal tendensiyaları nəzərə alaraq, abunəçilərin ev internetinin sürətinin və keyfiyyətinin artırılması istiqamətində bütün işləri görür. Bütün bunlar da vətəndaşların rəqəmsallaşma və həyat keyfiyyətinin yaxşılaşdırılması üçün yeni imkanlar yaradır.

*Yeganə BAYRAMOVA*




# Azercell-in dəstəyi ilə olimpiadalara hazırlaşan gənclər ölkəmizə daha 3 medal qazandırıb

## Məktəblilərimiz Yeniyetmələrin Avropa İnformatika Olimpiadasında 1 gümüş 2 bürünc medal əldə ediblər

14-22 avqust 2024-cü il tarixlərində Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində Yeniyetmələrin Avropa İnformatika Olimpiadası (EJOI) baş tutub. Sözügedən müsabiqədə Azərbaycan məktəblilərimiz tərəfindən uğurla təmsil olunub. Bakı şəhəri, 157 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Həsən Vəliyev gümüş, Bakı şəhəri, Bakı Türk Anadolu liseyinin 9-cu sinif şagirdi Əhməd Qənbərli və Sumqayıt şəhəri, 23 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Muhammedali Əhmədov bürünc medal qazanıblar.

Yeniyetmələrin Avropa İnformatika Olimpiadasına 2017-ci ildən etibarən qatılan məktəblilərimiz bu müsabiqədə ümumilikdə 4 gümüş və 8 bürünc medal qazanmağa müvəffəq olublar.




Qeyd edək ki, 7 ildən çoxdur ki, informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi “Azercell Telekom” MMC-nin Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə əməkdaşlığı çərçivəsində həyata keçirilir. Bu müddət ərzində Azərbaycan komandası müxtəlif yaş qrupları üzrə proqramlaşdırma müsabiqələrində əldə etdiyi ümumi medal sayını 77-yə çatdırıb.

# *İdman*

## Avarçəkmə üzrə Bakı açıq çempionatı keçirilib

Avarçəkmə üzrə Bakı açıq çempionatı keçirilib.




Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakı bulvarında AKAF-ın binasının qarşısında təşkil olunan turnirdə paytaxtla yanaşı, Mingəçevirdən olan yeniyetmə və gənc idmançılar müxtəlif yaş kateqoriyalarında yarışıblar.

Avarçəkənlər kayak və kanoe növlərində 200, 500 metr məsafədə bir və iki nəfərlik qayıqlarda, akademik növdə isə 500 metr məsafədə yalnız bir nəfərlik qayıqda mübarizə aparıblar. AKAF-ın, Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə maraqlı mübarizə şəraitində keçən açıq çempionatda qalib gələn idmançılar medal və diplomla mükafatlandırılıb.

Qeyd edək ki, yeniyetmə və gənclər arasında ölkədaxili yarışların təşkil edilməsində əsas məqsəd perspektivli idmançıları üzə çıxarmaq, gələcəkdə onlar arasından peşəkar idmançı yetişdirməkdir.

## Azərbaycanın stolüstü tennisçiləri Fransada keçirilən turnirə qatılıblar

Azərbaycanın stolüstü tennisçiləri Fransanın Şiltiqheym şəhərində təşkil olunan “Euro Mini Champs” turnirinə qatılıblar.

Azərbaycan Stolüstü Tennis Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, baş məşqçi Mixail Timofeyevin rəhbərliyi ilə Onur Quluzadə və Yağmur Məmmədli 2011-2012-ci il təvəllüdlü idmançılar arasında keçirilən yarışda qüvvələrini sınayırlar.



Turnirdə qitənin ümumilikdə 224 stolüstü tennisçisi bacarığını göstərir.

Bu gün start götürən yarışa avqustun 25-də yekun vurulacaq.

## Azərbaycan Alpaqut Federasiyasının növbəti qurultayı keçirilib

Azərbaycan Alpaqut Federasiyasının (Dünya Alpaqut Federasiyasının Azərbaycan nümayəndəliyinin) qurultayı keçirilib.



AZƏRTAC xəbər verir ki, Atatürk Mərkəzində təşkil olunan tədbirdə əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qurultayda Azərbaycan Alpaqut Federasiyasının (AAF) İdarə Heyətinin yeni tərkibi formalaşıb və federasiyaya prezident seçkisi olub. Federasiyanın bütün filial və klub rəhbərləri, məşqçiləri, hakimləri və 18 yaşına çatan idmançılarının iştirakı ilə keçirilən səsverməyə əsasən Fuad Quliyev yekdilliklə AAF-a yeni prezident seçilib.

O, çıxış edərək alpaqut turan döyüş sənətinin inkişafını sürətləndirmək üçün əlindən gələni edəcəyini bildirib.

Dünya Alpaqut Federasiyasının prezidenti Jalə Əhmədova isə federasiyanın əldə etdiyi uğurlardan və görülən işlərdən danışıb. O, nəinki Azərbaycanda, dünyada alpaqut idman növünə marağın artdığını qeyd edib.

Qeyd edək ki, Dünya Alpaqut Federasiyası alpaqut milli idman növünü inkişaf etdirmək məqsədilə 2014-cü ildə qurulan beynəlxalq təşkilatdır. Federasiyanın Azərbaycan başda olmaqla 57 ölkə üzrə rəsmi nümayəndəlikləri, klub və federasiyaları var. Federasiya IMGC, Fair-Play, ICSSPE, ISNO, GAWSF, TAFISA kimi tanınmış ciddi beynəlxalq idman birliklərinin üzvüdür. Dünya Alpaqut Federasiyası Beynəlxalq Assosiasiyalar İttifaqının nəşri olan Beynəlxalq Təşkilatların İllik Kitabında dərc edilib və Beynəlxalq Standart Ad Təyinatçısı (ISNI) təşkilatında qeydiyyata alınıb.


## Elan

“İpək Yolu Sığorta” ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı: Bakı şəhəri AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, “ASG Business Aviation” MMC-nin inzibatı binası, 4-cü mərtəbə



Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4848
Sifariş: 1892
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova